*Tanıyanlar tanıyır...*



# Əvvəl özümü sizə tanıdım, sonra da... ürəyimdə şəhidlərə ağı deyim...

*Mən **Cabir Albantürk – Cabir Səbrulla oğlu Ağaoğlu** 1961-ci ilin mayında Qubanın Alpan kəndində müəllim ailəsində anadan olmuşam. Orta məktəbi də elə Alpanda qurtarmışam. Bakı Maliyyə Kredit Texnikumunda göndərişlə 3 aylıq kurs keçərək, 1982-90-cı illər arası, bir müddət Quba Mərkəzi Əmanət Bankında nəzarətçi-xəzinədar vəzifəsində işləmişəm. Meşə və meyvəçilik təsərrüfatı da mənə tanış sahədir.*

*Özündən demək olmasın, 1983-cü ildən bəri, qələmimdən çıxanlar mətbuatda, ədəbi toplularda çap üzü görüb və görməkdədir. 1997-2000-ci illər arası Qubadakı tarixi "Gülüstan" ədəbi məclisində məni sədr kimi tanıyıblar. 1998-ci ildən üzü bu yana, bir neçə baxış-müsabiqənin qaliblərindən biri olmuşam.*

*...Bir vaxt həm də "Gənclik", "Məcməüş-şüəra", "Ay işığı" ədəbi məclislərinin fəal iştirakçısı, həm də "Qoroskop", "Türküstan", "Hürriyyət" qəzetlərinin bölgə təmsilçisiydim. "Qədim Alpan və Albanlar", "Yaralı Varlığımız" və "Üçüncü nöqtə" kitablarının müəllifiyəm. 2018-ci ilin yazından "Quba-Dərbənd Gülüstani-İrəm" ədəbi-tarixi yönümlü profil səhifəsinin yazarıyam. Böyük çıxmasın, - yaradıcılığım, istər ədəbi, istər publisistik yazılarım bir çox qəzet, jurnal və toplularda çap üzü görür və inşallah, görəcəkdir.*

*Qələm cəfakeşi olmaqla yanaşı, çoxu məni fəal ictimaiyyətçi kimi də tanıyır. Belə ki, elə indinin özündə də "Gülüstan" ədəbi məclisinin fəal üzvlərindən biri sayılıram. Özüm haqqında bu qədər.*

*Hə, az qala yadımdan çıxmışdı – 2002-ci ildən evliyəm, Allah sizinkiləri də saxlasın, bircə övladım var...*

## Məzarsız şəhidin məzarı şerim...

**...ürəyimdə qubar bağlamış... Şəhid ağılarından bir cüt bir təkini, səssiz-səmirsiz... "Qobustan"ın qaya tənhalığında deyəm gərək...**



### Məzarsız şəhidin məzarı şerim...

***alpanlı şəhid Eldar Əmirsultan oğlunun xatirəsinə***

Qarsımış ruhunla röyama girdin,
Yuxumda bir ocaq qaladın qardaş.
Mən sənin yerinə yana bimədim,
Bir şeir ağladı buludum,qardaş...

Bu kül qismətinə mələklər ağlar,
Cənnət də ruhunu ovuda bilməz.
Fələklər suçlu tək yasını saxlar
Hesab Allahındı - belə də qalmaz...

Şəhidlik qisməti - nə sevincək dərd,
Bu dərdə dözənin səbri Tanrıdan.
Elin vicdanında bu şərikli dərd,
Qəbrsiz şəhidin qəbri Tanrıdan...

Məzarsız bir hüznün bağlı yasında,
Dərdi ovutmağa göz yaşı gücsüz...
Yaddaş ağrısında qovrular sənsiz-
Doğmalar dönüncə Dərgaha, gec-tez

Millətin dərdinə dözə bilmədin,
Sonlu əzabının nəhayəti bu.
Bundan artığını yaza bilmədim,
Mənə də Tanrının səxavəti bu...

### *İki şəhid oğul – Şəmsəddin və Sərvərin atası İsnovqışlağlı Zahid kişiyə*

**Kişi, sən demisən "təki Vətən sağ olsun"!**

Vətən məhəbbəti, millət sevgisi
Övlad istəyinə tən gəlib necə...
Sözun Yaradana ata sayğısı
Bizi yazısıyla sınayan gücə...

Daşımısan dərdi səbir atında
Gələnlər, görənlər karıxıb qalıb.
Fəxrin vüğarındı səbir adında,
Bir cüt Ah gözündə duruxub qalıb...

Şəhidlər atası - ucaymış bu ad,
Bu adı bir az da ucaldan oldun.
Ata mərdliyinə oğullar sənəd...
Oğullar əvəzi Ata doğuldun...

### Alpanlı şəhid kapitan Aqil Niyaz oğlunun xatirəsinə

Atan el üçün ağladı, sən Vətən üçün,
Şəhidliyin mübarəkdi, Aqil kapitan.
On bir il xidmət etdiyin can Vətən üçün,
İndi də ruhun döyüşür, Aqil kapitan.

Azadlıqda Xudafərin körpüləri,
Şuşa, Laçın ürək açır dilimizdə.
Baş Komandan ordu, millət hünərilə
Gələcəyə çıraq tutur, yolumuzda.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ
الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ ۝ الرَّحْمَٰنِ الرَّحِيمِ ۝ مَالِكِ
يَوْمِ الدِّينِ ۝ إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ ۝ اهْدِنَا
الصِّرَاطَ الْمُسْتَقِيمَ ۝ صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ
عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ ۝

****

**Ordumuzun qüdrətinə şahid oldu ölkələr,**
**Yoxa çıxdı xəyallardan olar-olmaz, bəlkələr:**
**Düşdü qaz tək pərən-pərən marıqdaki kölgələr,**
**Əldə Bayraq, dildə Allah, tifaqını silkələr**
**Yağı düşmən qorxusu – Mübarizlər Ordusu!!**

****

**Daşaltıda düşdüyümüz daş altından çıxdıq axır,**
**Düşmənin ilk "zəfər"ini başlarına yıxdıq, axır!**
**Ay-ulduzlu bayraqları Şuşamıza taxdıq axır,**
**Qarabağın qalasından can Vətənə baxdıq, axır!**